**Bakıda fəaliyyət göstərən ictimai iaşə müəssisəsində nöqsanların aşkarlanmasına dair məlumat**

**(1 dekabr 2023)**

Bakı şəhəri, Xətai rayonu, R.Quliyev küçəsi, ev 2 ünvanında fəaliyyət göstərən, fiziki şəxs Babışov Elməddin Rəhim oğluna məxsus “Kənd Evi” ictimai iaşə müəssisəsində Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən plandankənar yoxlama keçirilib.
Baxış zamanı qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların, sanitariya norma və qaydalarının tələblərinin pozulduğu müəyyən edilib.
Aşkar olunmuş nöqsanlarla bağlı məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar qəbul edilərək müəssisədə işlərin görülməsi, xidmətlərin göstərilməsi dayandırılıb və rəhbərliyi barəsində inzibati protokol tərtib olunub.